1_Layout 1 14.04.2025 9:44 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 7 (695)

15 aprel 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN, HƏRBİ GÜC, QÜDRƏTLİ DÖVLƏT

## Ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar inamla icra edilir

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu “Müzəffər Ali Baş Komandan, hərbi güc, qüdrətli dövlət” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

**Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə sahib olan Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da ordusunun modernləşməsi istiqamətində çox mühüm addımlar atmaqdadır.**



Düzdür, bu gün Azərbaycan qalib dövlət kimi regionda yalnız sülhün, təhlükəsizliyin tərəfdarıdır. Lakin məğlub Ermənistanın savaşdan 5 il ötməsinə baxmayaraq, hələ də sülh müqaviləsini imzalamaqdan boyun qaçırması, vaxt udaraq gizli şəkildə silahlanması Azərbaycanı daha diqqətli olmağa sövq edir. Çünki tarixin bütün zamanlarında Azərbaycan xalqı erməni hiyləsinin, erməni məkrinin qurbanı olub.

İndi isə zaman dəyişib və bu gün diktə edən tərəf Azərbaycandır. Belə bir deyim də var ki, sülh istəyirsənsə, müharibəyə hazır ol! Əgər Ermənistan sülhdən yayınaraq guya gizli şəkildə yenidən silahlanırsa, onda Azərbaycan nədən öz hərbi gücünü daha da artırmasın?!

Ermənistan yaxşı bilir ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildə ona qalib gələn ordudan daha da güclüdür. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar, ordunun arsenalına daxil edilən zirehli texnikalar, modern silah-sursatlar bunu deməyə bir daha əsas verir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu yeni vəzifələrə, tələblərə uyğun olaraq ordumuzun maddi-texniki bazası daha da modernləşir, mütəmadi keçirilən hərbi təlimlər Silahlı Qüvvələrimizin gücünə güc qatır. Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Həyata keçirilən ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən Silahlı Qüvvələr kimi düşmənlərə göz dağı verir. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Silahlı Qüvvələrini dünyanın ən güclü 50 ordusu sırasına yüksəldib.

Müasir dövrdə hərbi-texniki təchizat texnologiyanın sürətli inkişafı ilə daha da modernləşib, hərbi gücün artırılması üçün dövrün tələblərinə uyğun innovativ sistemlərə əsaslanıb. Bu vasitələr ölkənin həm döyüşaparma, həm də özünümüdafiə qabiliyyətinin yüksəldilməsində effektivliyi təmin edir. Bundan savayı, işğaldan azad olunmuş ərazilərimizdəki hərbi hissələrin maddi-texniki bazasının inkişaf etdirilməsi, şəxsi heyətin xidməti və məişət şəraitinin yaxşılaşdırılması da gündəlikdə duran vacib məsələlərdəndir. Bu ildə də dünyanın aparıcı ordularına sahib dövlətlərilə qurulmuş qarşılıqlı səmərəli əməkdaşlıq sayəsində mühüm layihələrə imza atılıb, nəticədə ordumuzun hərbi təminat və təchizat bazası xeyli modernləşib və gücləndirilib.

Müdafiə sənayesindən söz düşmüşkən onu da qeyd etmək lazımdır ki, xarici dövlətlərlə yanaşı, yerli müdafiə sənayemizin istehsalı olan müxtəlif hərbi-texniki təminat və təchizat vasitələrini də ordumuzda görmək mümkündür.

Vətən müharibəsindən sonra isə ordunun daha da modernləşməsi istiqamətində qarşıya yeni vəzifələr, tələblər qoyulub və bu gün həmin proses uğurla davam etdirilir.

Ali Baş Komandan İlham Əliyev tərəfindən ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsinə, müasir infrastrukturun yaradılmasına, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılmasına, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə xüsusi diqqət ayrılıb. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

Aprelin 5-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən xidməti müşavirədə bütün bu məsələlərə toxunulub və qarşıya qoyulan hədəflər açıqlanıb. Prezident İlham Əliyev tərəfindən ordu quruculuğunun ölkəmizdə prioritet məsələlərdən biri olduğunun vurğulandığını qeyd edən müdafiə naziri bölmələrin xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi, eləcə də döyüş qabiliyyətinin daha da artırılması ilə bağlı Ali Baş Komandanın ordu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb. Nazir bildirib ki, tarixi Zəfərin sülh danışıqlarına yol açdığını qeyd edən Ali Baş Komandan Azərbaycan Ordusunun xüsusilə 44 günlük Vətən müharibəsi və sonrakı döyüş əməliyyatlarında nümayiş etdirdiyi peşəkarlığı yüksək qiymətləndirib, həm də qarşımızda daha məsuliyyətli vəzifələr qoyub.

Müşavirədə Azərbaycana kəşfiyyat xarakterli uçuşlar həyata keçirmə cəhdləri geniş müzakirə edilib. Nazir Azərbaycan Ordusu bölmələrinin hər an istənilən təxribata qarşı çevik reaksiya verməyə hazır olması barədə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub, döyüş növbətçiliyinin təşkili zamanı ayıq-sayıqlığın artırılmasının vacibliyini vurğulayıb.

Daha sonra Azərbaycan Ordusunda aparılan uğurlu islahatların müsbət nəticələrindən danışılıb, cari il ərzində həyata keçirilən və planlaşdırılan tədbirlər müzakirə edilib.

Qoşunların döyüş imkan və qabiliyyətlərinin inkişaf etdirilməsinin vacibliyini vurğulayan nazir müasir döyüş təcrübəsi nəzərə alınmaqla keçirilən hərbi təlimlərin intensivliyinin qorunub saxlanılmasını və texnoloji yeniliklərin tətbiqi ilə keyfiyyətinin daim artırılmasını tapşırıb. Müasir informasiya texnologiyaları vasitələrinin kibertəhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən fəaliyyətlərlə bağlı göstərişlər verib. Hərbi təhsil sistemində əlçatanlığın, əhatəliliyin və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə tətbiq edilən yeni forma və metodlar nəzərə alınmaqla bölmələrin peşəkar kadr heyəti ilə komplektləşdirilməsinə xüsusi diqqət yetirilməsinin əhəmiyyəti qeyd olunub.

Nazir müxtəlif ixtisaslı hərbi vəzifəlilərin cəlb edildiyi təlim toplanışlarında onların bilik və bacarıqlarının artırılması, həmçinin silahlanmaya yeni qəbul edilmiş silah və texnikadan istifadə qaydalarının öyrədilməsi üzrə vəzifəli şəxslər qarşısında tapşırıqlar qoyub.

Şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, mənəvi-psixoloji hazırlığı, xüsusilə kəskin relyefli ərazilərdə dislokasiya olunan bölmələrin maddi-texniki təminatı, keyfiyyətli qidalanmasının təşkili, həmçinin təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinə nəzarətin gücləndirilməsi barədə tələblər bir daha komandir heyətinə çatdırılıb.

Bir sözlə, Ali Baş Komandanın həyata keçirdiyi islahatlar onu deməyə əsas verir ki, Silahlı Qüvvələrimiz vahid proqram əsasında inkişaf etdirilir. Qalib Sərkərdənin söylədiyi kimi, görülən işlərə, aparılan islahatların real nəticəsinə əsasən deyə bilərik ki, hazırda Azərbaycan Silahlı Qüvvələri müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş ordumuzdan daha da güclüdür. Bu hərbi güc Qafqazın ən güclü Zəfər Ordusudur. Güclü ordun varsa, qüdrətin və hörmətin də var. Ordumuz güclüdürsə, xalqımız da, dövlətimiz də güclüdür.

# Daxili işlər naziri Şəkidə vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 7-də və 8-də Şəki Şəhər Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Şəki şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Şəki Şəhər Rayon Polis Şöbəsində Şəki, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ şəhər və rayonlarından qəbula gələn 312 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 198 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 14.04.2025 10:52 Page 1



# "EKSTREMAL VƏZİYYƏTLƏRDƏ DAYANIQLIĞIN VƏ ŞÜCAƏTİN NÜMAYİŞ ETDİRİLMƏSİ, DÜZGÜN QƏRARLARIN VERİLMƏSİ VACİBDİR"





Silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində fəaliyyət göstərən xüsusi təyinatlıların həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

17071 saylı hərbi hissənin komandiri polkovnik Rüstəm Dəmirov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, dəstə hər an qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirməyə hazırdır. Belə ki, müxtəlif təlimlərdə iştirak edən dəstənin şəxsi heyəti hər zaman yüksək peşəkarlıq nümayiş etdirərək göstərilən etimadı doğruldur.

Polkovnik R.Dəmirov onu da vurğuladı ki, xüsusi təyinatlı dəstənin təlimləri əsasən çətin iqlim və fərqli relyef şəraitlərində təşkil olunub keçirilir. Ekstremal vəziyyətlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, vaxtında və düzgün qərarların verilməsi xüsusilə diqqətdə saxlanılır.

Xüsusi təyinatlı dəstənin komandiri mayor Anar Mahmudov şəxsi heyətlə təlim-məşqlərin hava şəraitindən asılı olmayaraq, davamlı xarakter daşıdığını dedi. Əlavə etdi ki, döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərin təşkili təkmilləşdirilir. Məşğələ mövzularının dərindən mənimsənilməsinə, həmçinin hərbi qulluqçuların təlim-tərbiyəsi və mənəvi-psixoloji hazırlıqlarına diqqət yetirilir.



Döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi və hava şəraitlərində məşğələlər keçirilir. Fiziki hazırlıq məşğələlərinin keçirilməsində yarımqrup komandirləri də xüsusi fəallıq nümayiş etdirirlər. Əlavə olaraq, cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərk-silah edilməsi üzrə xüsusi metod və vasitələr öyrədilir, praktiki fəaliyyətə üstünlük verilir.

Mayor A.Mahmudov keçirilən praktiki məşğələlərin şəxsi heyətin peşə vərdişlərinin təkmilləşdirilməsində çox əhəmiyyətli rol oynadığını, bu zaman təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu da nəzərə çatdırdı. Vurğuladı ki, hər bir xüsusi təyinatlı öz hərbi peşəsini, vəzifə borcunu dərindən öyrənməli, təhkim olunmuş silaha mükəmməl yiyələnməli, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanı bacarıqla tətbiq etməlidir. O, bundan sonra da peşəkarlığını artırmaq üçün şəxsi heyətin yorulmadan öz üzərində çalışacağını dedi.

Dəstə komandiri intizamlı və fəal hərbi qulluqçulardan gizirlər Xəzər Tahirov, Murad Haqverdiyev, baş çavuşlar Abdulrza Babayev, Səlahəddin Baxışlı, çavuş Ramal Əlizadənin adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# ÇAĞIRIŞÇILARIN QƏBULU DAVAM EDİR



Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, aprel ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilir. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" müvafiq əmri ilə çağırışçıların məhkumluqlarının yoxlanılması, genişləndirilmiş tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahının təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.



25031 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Allahverdi Nəbiyev bildirib ki, çağırışçıların xidmətə qəbulu, onların yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının xüsusilə diqqətdə saxladığı məsələlərdəndir.

Seçim qrupunun rəhbəri polkovnik X.Bağırov məlumat verib ki, hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılır. Onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilir. Bütün məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanır və hərbi hissəyə təqdim olunur.



Daha sonra çağırışçılar növbə ilə həkim müayinələrindən keçirlər. Bununla yanaşı, onlar əşya əmlakları, eləcə də ölçülərinə uyğun geyimlərlə təmin edilirlər.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılır, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu onlara məsləhətlər verir.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, sıralarımıza xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilməkdədir.



**Mətbuat xidməti**

# "GÜNDƏLİK XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN NƏZARƏTDƏ SAXLANILMASI MÜHÜM AMİLLƏRDƏNDİR"







67987 saylı hərbi hissənin xidməti nailiyyətləri ilə fərqlənən, 2024-cü ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına görə qabaqcıl bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir.

Dəstə komandiri polkovnik-leytenant Rüfət Muradov yüksək intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkar olmağın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. O, xidmətini daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil etdiyini nəzərimizə çatdıraraq, keçirilən praktiki və nəzəri məşğələlərin keyfiyyətli və tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini sözlərinə əlavə etdi.

Şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığına, təlim-tərbiyəsinə, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, xüsusi vasitə və silahların, texnikanın vəziyyətinə daim nəzarət etdiyini diqqətə çatdıran dəstə komandiri söhbət əsnasında xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi, bu sahədə ona yaxından köməklik göstərən bölmə komandirlərinin adlarını çəkməyi unutmadı. Əlalxüsus, xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri kapitan Aruz Abbaszadənin il ərzində uğurlu xidmətini diqqətə çatdırdı. Onun tabeliyindəki şəxsi heyətin intizamına, xidmətdən sonrakı fəaliyyətinə nəzarət etdiyini, onların fərdi qaydada peşəkarlığının artırılması istiqamətində mütəmadi işlər apardığını və kollektivdə yoldaşlıq münasibətlərinin inkişafına çalışdığını bildirdi.

Həmçinin yarımqrup komandirlərindən gizir Tahir Səlimov, baş çavuş Şamil Məmmədovun üzərilərinə düşən vəzifələri layiqincə icra etdiklərini söyləyən dəstə komandiri nümunəvi hərbi qulluqçulardan baş əsgər Nicat Qurbanzadə, əsgərlər Kamran Təhməzov və Qabil Vəliyevin adlarını çəkdi.

Ümumiyyətlə, hərbi qulluqçuların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, peşəkarlığın və əzmkarlığın formalaşdırılması, keçirilən praktiki məşğələlərin mənimsənilməsi üçün əlindən gələni edən xüsusi vasitələrin tətbiqi dəstəsi komandirinin müavini - qərargah rəisi mayor Fuad Əliyevin də əməyi xüsusi olaraq vurğulandı: "Tələbkarlıqla yanaşı, hərbi qulluqçulara diqqət və qayğının artırılması döyüş hazırlığını yüksəldən amillərdən biridir desək, heç də yanılmarıq. Ümumilikdə götürsək, dəstədə xidmət edən bütün komandir heyətinin öz işini düzgün istiqamətdə qurması sonda gözlənilən nəticənin əldə olunmasına təkan verir".

**kapitan Nigar Ağayeva**

# İSTEHKAMÇILARIN PEŞƏKARLIĞI HƏR ZAMAN ÖZÜNÜ BÜRUZƏ VERİR



67987 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində ayıq-sayıqlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrindən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.

İstehkamçı yarımqrupunun komandiri-baş istehkamçı baş gizir Sənan İbayev söylədi ki, təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə müvafiq axtarışların aparılması və naməlum əşyaların aşkar edilməsi yarımqrupun əsas vəzifələridir.

O qeyd etdi ki, qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə şəxsi heyətlə mütəmadi olaraq məşğələlər keçirilir. Hər həftənin şənbə günü isə kimya və mühəndis xidmətinin rəisi mayor Polad Şirinov tərəfindən ixtisas hazırlığı üzrə nəzəri və praktiki məşğələlər təşkil olunur.

Baş gizir S.İbayev istehkamçıların döyüş hazırlıqlarının ayda iki dəfə hərbi hissənin, iki dəfə isə xüsusi təyinatlı dəstənin komandanlığı tərəfindən yoxlanıldığını da sözlərinə əlavə etdi.



Baş gizir S.İbayev yarımqrupun nümunəvi hərbi qulluqçularından çavuşlar Ağabəy Ağacanov, Əhməd Əhmədov və Ülfət İbrahimovun adlarını çəkdi, onların vəzifələrinin icrasına məsuliyyətlə yanaşdıqlarını və Vətən müharibəsi iştirakçıları olduqlarını söylədi.

Xüsusi təyinatlı dəstə komandirinin müavini - qərargah rəisi mayor Nemət Ağayev də istehkamçı yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, hərbi qulluqçuların qarşıya qoyulan tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirməyə hər an hazır olduqlarını bildirdi. Əsasən də beynəlxalq əhəmiyyətli tədbirlər zamanı istehkamçıların vəzifə borclarını xüsusi diqqət və dəqiqliklə icra etdiklərini nəzərimizə çatdırdı. Keçən il ölkəmiz üçün olduqca mühüm tədbir olan COP29 zamanı apardıqları uğurlu xidmətə görə yarımqrupun şəxsi heyətinin daxili işlər naziri tərəfindən mükafatlandırılmasını sevindirici və stimulverici hal kimi qiymətləndirdi.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 14.04.2025 10:04 Page 1



# BÖYÜK ZƏFƏRƏ GEDƏN YOLUN BAŞLANĞICI - APREL DÖYÜŞLƏRİ

Şanlı Zəfərə gedən yolun başlanğıcı olan Aprel döyüşlərindən doqquz il ötdü. Azərbaycan Ordusu 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq uğurlu əks-həmlə əməliyyatını həyata keçirib. Aprel ayının 4 günü ərzində bölmələrimiz tərəfindən yerinə yetirilən adekvat cavab tədbirləri nəticəsində düşmən ağır məğlubiyyətə uğrayıb, Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının 2 min hektardan çox hissəsi azad edilib, həmçinin minlərlə hektar strateji əhəmiyyətli ərazi ordumuzun tam nəzarətinə keçib.



Azərbaycan əsgərinin gücünün, qüdrətinin ifadəsi kimi tarixləşən, qəhrəman oğullarımızın misilsiz şücaəti ilə qazanılan şanlı Aprel qələbəsi bütün dünyaya dövlətimizin, xalqımızın qüdrətini, hərbçilərimizin əzmini nümayiş etdirib. Eyni zamanda qazanılan bu parlaq qələbə Ermənistanın uzun illər ərzində məğlubedilməz ordu yaratmaqları haqqında uydurduqları mifi dağıdıb.

Aprel döyüşləri Azərbaycanın hərb salnaməsinə qızıl hərflərlə yazılan şanlı Vətən müharibəsində böyük Zəfərə gedən yolda mühüm əhəmiyyət kəsb edir. Bu döyüşlərdə düşmən üzərində qazanılan hərbi uğurlar Azərbaycan Ordusunun və xalqının böyük qələbəyə inamını və əzmini daha da artırmaqla yanaşı, Silahlı Qüvvələrimizin şəxsi heyəti üçün böyük təcrübə oldu. Məhz bu təcrübəni Vətən müharibəsində uğurla tətbiq edən cəsur hərbi qulluqçularımız düşmənə sarsıdıcı zərbələr endirərək torpaqlarımızı 44 gündə işğaldan azad etdilər.

Qarabağ Zəfərinin davamı olaraq, 2023-cü il sentyabrın 19-20-də Silahlı Qüvvələrimizin apardığı birgünlük uğurlu lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu.

2023-cü il noyabrın 8-də Xankəndidə keçirilən Zəfər paradı Azərbaycanın gücünün və Silahlı Qüvvələrimizin qüdrətinin daha bir parlaq nümayişi kimi tarix səhifələrinə yazıldı.

Doqquz il əvvəl Lələtəpədə ucaldılan üçrəngli bayrağımız bu gün Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdamda, Şuşada, Hadrutda, Laçında, Əsgəranda, Xocavənddə, Ağdərədə, Xocalıda və Xankəndidə dalğalanır.

Bu baxımdan şanlı Aprel döyüşləri hər zaman Azərbaycan dövləti və xalqı üçün böyük qələbənin başlanğıcı kimi xatırlanacaq.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

# ŞƏHİDLƏRİMİZİN ƏZİZ XATİRƏSİNİ ANMAQ HƏR BİRİMİZİN BORCUDUR

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçuların xatirələri ehtiramla anılır, onların ailə üzvlərinə dərin hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı, zəngin xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir. Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

17071 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissənin ayrı yerləşən patrul taboru komandirinin tərbiyə işləri üzrə müavini kapitan Rəfael Lətifovun rəhbərliyi ilə xüsusi təyinatlı dəstənin bir qrup hərbi qulluqçusunun Daxili Qoşunların şəhidi baş çavuş Elçin Nadirovun Şəkidə yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. İlk olaraq hərbi qulluqçularımız tərəfindən şəhidin məzarı ziyarət olunub. Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub.

Qeyd edək ki, Elçin 1987-ci il dekabrın 5-də Şəki şəhərində anadan olub. Şəkidəki Mirzə Fətəli Axundov adına 2 saylı, habelə 5 və 7 saylı orta məktəblərdə oxuyub, sonra şəhərdə yerləşən Fizika-riyaziyyat və humanitar təmayüllü liseyə qəbul olunub, 2005-ci ildə buranı bitirib. Yeniyetməlik illərində doğma şəhərində idmanın karate növü ilə məşğul olub. O, 2006-cı ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25032, 67987 və 17072 saylı hərbi hissələrində hərbi xidmət keçib, 2007-ci ilin iyul ayında tərxis olunub. 2009-cu ilin aprel ayında isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarına qayıdıb. 16077, 17074 və 17071 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə komandanlığın etimadını doğruldub.



Onu tanıyan xidmət yoldaşları qeyd edirlər ki, baş çavuş E.Nadirov intizamlı, funksional vəzifələrinin, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələn, döyüş hazırlığının yüksəldilməsinə çalışan, ona təhkim olunan silah və xüsusi vasitələrdən mükəmməl istifadə edən, dəstənin təlimlərində fəallıq göstərən peşəkar hərbi qulluqçu olub. Silahdaşlarının hörmət və inamını qazanıb.

Elçin Vətən müharibəsinin ilk günlərindən düşmənə qarşı cəsurluqla vuruşub. Ön cəbhənin ayrı-ayrı istiqamətlərində silahdaşları ilə birgə döyüş tapşırıqlarını mətinliklə yerinə yetirib, düşmənin müdafiə xəttinin yarılması, mövqelərinin ələ keçirilməsi, onun canlı qüvvəsinin məhv edilməsində döyüşçü şücaəti göstərib. O, 2020-ci il oktyabrın 15-də, təxminən gündüz saat 3 radələrində Füzuli şəhəri ərazisində ağır yaralanan yoldaşına kömək etməyə cəhd göstərərkən ermənilərin minaatandan açdığı atəş nəticəsində ölümcül yaralanıb. İlk tibbi yardım göstərilsə də, onun həyatını xilas etmək mümkün olmayıb.



Şəhid Şəki şəhərinin Məzahir Abbasov küçəsində yerləşən qəbiristanlıqdakı Şəhidlər məzarlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 və 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş E.Nadirov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin ailəsi ilə görüşən hərbi qulluqçularımız onun anası Rəmziyyə xanımla söhbət edib, ömür yolu barədə xatirələrini bölüşüblər. Rəmziyyə xanım oğlu barədə fəxarət və qürurla danışıb. Bildirib ki, Elçin çox mehriban, böyük-kiçiyə hörmətlə yanaşan, səbrli, xoşxasiyyət, ailəcanlı bir övlad, əməksevər gənc olub. O, daim ailəsinə qayğı göstərib, hər zaman doğmaları ilə maraqlanıb. Yaxınları onun hərbçi olmasından həmişə qürur duyublar.

Rəmziyyə xanım üçün övlad itirmək, özü də belə bir qeyrətli oğulun ölümü sözlə ifadə olunmayan ağrı-acıdır. Lakin oğlunun torpaqlarımızın işğaldan azad edilməsi naminə şəhidlik məqamına ucalması onun yeganə təskinliyidir.

Qeyd edək ki, şəhidin anasının təşəbbüsü ilə evdə xatirə guşəsi və barelyefi düzəldilib. Şəki rayonunun Qoxmuq kəndində yaradılan şəhid bulağı və fotostenddə Elçinin də şəkli var.

Ona göstərilən diqqət və qayğıdan razı olduğunu bildirən Rəmziyyə xanım daxili işlər nazirinə və daxili qoşunların komandanlığına minnətdarlığını ifadə edib, şəhid olan qəhrəman oğullarımızın xatirələrinin hər zaman dərin ehtiramla anılacağını söyləyib.

**kapitan Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# ÖMRÜNƏ ŞƏHADƏT YAZILAN QEYRƏTLİ OĞUL

Birinci Qarabağ müharibəsi zamanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti ilk dəfə olaraq erməni işğalçılarına qarşı döyüşə başlayıb. Ön cəbhənin müxtəlif istiqamətlərində cəsurluqla vuruşan hərbi qulluqçularımız ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda fədakarlıq nümunələri göstəriblər. Həmin dövrdə şəxsi heyətin sıralarından 682 nəfər şəhidlik zirvəsinə ucalıb. Bu siyahıda adı olan döyüşçülərdən biri əsgər Səfərov Səfərəli Allahverdi oğludur.

O, 1973-cü il dekabrın 27-də Ermənistan Respublikasının Qafan rayonunun Dovrus kəndində anadan olub. Bu kənd Qərbi Azərbaycanın Zəngəzur mahalının qədim yurdlarından biri kimi tanınıb. Əsrlər boyu orada soydaşlarımız yaşayıblar.

Səfərovlar ailəsində 4 oğul və 2 qız övladı boya-başa çatıb. Allahverdi kişinin və Gövhər xanımın qızlarından biri, habelə oğulları arasında Səfərəli yaşca kiçik övlad idi. Əslində adı Səfəralı olsa da, sənədlərdə yanlışlığa yol verilərək Səfərəli yazılıb.

Halal zəhməti ilə dolanan, adət-ənənələrimizə sadiq qalan, yurd sevgisindən ruhlanan, xeyirxah bir ailədə tərbiyə olunması onun həyata baxışlarında, dünyagörüşündə silinməz iz qoyub.

Doğma kəndindəki orta məktəbdə təhsil alıb. Ədəb-ərkanı, dürüstlüyü, səmimiyyəti, məktəb tədbirlərində fəallığı ilə müəllimlərinin və sinif yoldaşlarının hörmətini qazanıb.

1978-ci il martın 8-də qəza nəticəsində atasının vəfat etməsi Səfərəlini dərindən sarsıdıb. Həmin vaxtdan həyatının sonunadək ata nisgili ilə yaşayıb. Ailə başçısının ölümü onların güzəranını çətinləşdirib. Çoxuşaqlı ailənin əziyyəti Gövhər xanımın üzərinə düşüb.

1988-ci ilin fevral ayında Qarabağda erməni separatizminin baş qaldırması, ardınca Ermənistanda azərbaycanlı əhalidən ibarət yaşayış məntəqələrində törədilən qanlı hadisələr xalqımıza qarşı məkrli planın tərkib hissəsi idi. Ermənistanda şovinizm ideologiyasının yeridilməsi və həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində soydaşlarımız öz tarixi torpaqlarından didərgin salınıblar. Dovrus kəndi də ermənilərin təzyiq və təhdidləri ilə üzləşib, onlar tərəfindən atəşə tutulub. Sakinlər kəndi tərk etmək məcburiyyətində qalıblar.

Beləliklə, 1988-ci ilin dekabr ayından etibarən Səfərovlar ailəsi üçün qaçqınlıq həyatı başlayıb. Terror, zorakılıq təhlükəsindən xilas olmaq üçün respublikamıza pənah gətiriblər.



1989-cu ildə Səfərəli Sumqayıt şəhərindəki 1 saylı tam orta məktəbin (hazırda İsmət Qayıbovun adını daşıyır) 8-ci sinfini bitirib. Sonra Sumqayıtdakı 7 saylı texniki-peşə məktəbində oxuyub, rəngsaz və suvaqçı ixtisaslarına yiyələnib. Bir müddət inşaat sahəsi üzrə fəaliyyət göstərən müəssisədə işləyib. Ailədən öz qayğısını əsirgəməyib.

1992-ci ilin iyul ayında Səfərəli DİN-in Daxili Qoşunlarının sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 17072 saylı hərbi hissədə xidmətə başlayaraq orada hərbi and içib. Andiçmə mərasimində qardaşı Məhəmməd Səfərov və bacısı Gülçöhrə xanımın həyat yoldaşı Qasım Abdullayev iştirak ediblər. Belə unudulmaz gündən xatirə olaraq fotoşəkil çəkilib. Hərbi formada yeganə fotoşəklidir.

O dövrdə Ermənistanla həmsərhəd rayonlarda, eləcə də Qarabağda işğalçı erməni silahlı birləşmələrinə qarşı şiddətli döyüşlər gedib. Hərbi hissələrdə şəxsi heyət qısa müddətdə təlim keçərək ön cəbhəyə göndərilib. 17072 saylı hərbi hissədən Ağdam-Ağdərə bölgəsinə göndərilən hərbçilərdən biri də Səfərəli olub. Göstərilən istiqamətdə silahdaşları ilə birlikdə döyüş tapşırıqlarını qətiyyətlə yerinə yetirib. Onu xatırlayan bəzi döyüşçü yoldaşlarının söylədiklərinə görə, o, həm avtomat, həm də qumbaraatan silahlarından düşmənə tutarlı atəş zərbələri endirib. Odlu səngərlərdə qorxmadan, ləyaqətlə vuruşub.

1992-ci il sentyabrın 29-da Ağdərə rayonunun Sırxavənd kəndi (1992-ci ilin oktyabr ayından 2023-cü ilin dekabr ayınadək Ağdam rayonunun tərkibində olub, yenidən yaradılan Ağdərə rayonuna birləşdirilib) uğrunda döyüş zamanı Səfərəli itkin düşüb. Sırxavənd işğal olunduğundan döyüşdə şəhid olan bəzi hərbi qulluqçularımızın nəşlərini çıxarmaq mümkün olmayıb.

Döyüşçünün doğmaları o qanlı-qadalı günlərdə ön cəbhəyə yollanaraq bir xəbər almaq ümidi ilə axtarış aparıblar. Ancaq bu axtarışlar onun taleyinə aydınlıq gətirməyib. Həmçinin müharibə dövründə və sonrakı illərdə Beynəlxalq Qızıl Xaç Komitəsinə ailənin etdiyi müraciətlərə ümidverici cavab verilməyib, əsir düşmüş hərbi qulluqçularımızın arasında da onu görən, adını eşidən olmayıb. Beləcə, uzun illər əzizlərinin gözləri yoldan yığılmayıb, anası, bacıları və qardaşları onun yoxluğu ilə barışa bilməyiblər, bu acıya dözmək iztirablı olub, həmişə Allaha dualarında Səfərəlinin adını səsləndiriblər.

2005-ci il sentyabrın 27-də Sumqayıt Şəhər Məhkəməsi S.Səfərovun respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə ölmüş elan olunması barədə müvafiq qətnamə qəbul edib. Bununla əlaqədar ailəyə 3 noyabr 2005-ci il tarixli ölüm haqqında şəhadətnamə təqdim olunub. Məhkəmə qətnaməsi qüvvəyə mindikdən sonra hərbi qulluqçumuza şəhid statusu verilib.

2014-cü il noyabrın 19-da şəhidin anası uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib. Ömrünün sonunadək oğul həsrəti ilə yaşayaraq özünə qapanıb, bu dərd yükü sağlamlığına mənfi təsirini göstərib. Gövhər xanım oğluna cismən olmasa da, ruhən qovuşacağına inanıb.

2016-cı ilin yanvar ayında şəhidin ailə üzvlərindən müharibədə itkin düşmüş şəxsin doğmaları olaraq müvafiq laboratoriyada DNT nümunələri (bioloji qohumluğun təyini məqsədini daşıyır) götürülüb. Bunun şəhidin nəşinin tapılması üzrə axtarışlar üçün gərəkli olduğu bildirilib.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərinin möhtəşəm hərbi zəferimizlə başa çatması, torpaqlarımızın işğalına son qoyularaq şəhidlərimizin qisasının alınması bütün xalqımız kimi, Səfərəlinin doğmalarını da ürəkdən sevindirib və qürurlandırıb. Qələbəmiz uzun illər itkin sayılan vətəndaşlarımızın qaranlıq taleyinə işıq salmağa da imkanlar yaradıb, onların ailələrini ümidləndirib.




Qeyd edim ki, 31 ildən sonra, 2023-cü ilin sentyabr ayında Sırxavənd işğaldan azad olunub. 2024-cü il sentyabrın 7-də döyüşçünün ailəsinə Səfərəlinin nəşinin qalıqlarının Sırxavənd kəndinin qəbiristanlığında tapılması barədə məlumat çatdırılıb. DNT müayinəsinin nəticələri şəhidin kimliyini təsdiq edib. Bununla da 32 il çəkən xəbərsizliyə son nöqtə qoyulub.

2024-cü il sentyabrın 20-də şəhid əsgərimizin nəşinin qalıqları Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında hərbi ehtiramla torpağa tapşırılıb. Dəfn mərasimində şəhər rəhbərliyi, ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, veteranlar, hüquq-mühafizə orqanlarının əməkdaşları və şəhidin doğmaları iştirak ediblər.

Əsgər S.Səfərovun adı DİN-in Daxili Qoşunlarının respublikamızın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçularının siyahısına əlavə edilib.

Şəhidin qardaşı Xanoğlan Səfərov Birinci Qarabağ müharibəsində könüllü olaraq müxtəlif bölgələrdə vuruşub. Səfərəlinin döyüşdüyü əraziyə yaxın mövqedə olsa da, iki qardaşa görüşmək qismət olmayıb.

44 günlük Vətən müharibəsi zamanı şəhidin qardaşı oğlu Şahin Səfərov könüllü şəkildə ordu sıralarına qatılaraq döyüş sınağından keçib. Şahin "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilib.

Azərbaycan Respublikası "Xatirə kitabı"nın 2024-cü ildə işıq üzü görən IV cildində, habelə "Qərbi Azərbaycan şəhidləri" kitabının I cildində, "Poeziya antologiyası. Zirvəyə gedən yollar" kitabında, "Ölməzlik anları" adlanan, BQXK-nin fəaliyyəti işıqlandırılan xüsusi nəşrdə döyüşçü haqqında məlumat dərc olunub. Şəhidin orta məktəbdə müəllimi olmuş Sərvər Azadəliyev (Dovrus kənd orta məktəbinin sabiq direktoru) ona həsr olunan məqalə yazıb. "Telli Sənəm" ədəbi-bədii, publisistik jurnalında Səfərəli haqqında qələmə alınan şeir öz əksini tapıb.

Sumqayıt şəhərindəki İsmət Qayıbov adına 1 saylı tam orta məktəbin 5 C sinfinə şəhid əsgərin adı verilib.

Səfərəlinin əzizləri məzarından bir ovuc torpaq götürərək anasının qəbri üzərinə töküblər. Bacısı Gülçöhrə xanım dedi ki, xalqına qeyrətli oğul olmuş qardaşının nəşinin qalıqlarının tapılması, müqəddəs məkan olan Şəhidlər xiyabanında dəfn edilməsi, uğrunda canını qurban verdiyi torpaqların işğalının sona çatması ailə üzvləri üçün böyük təskinlikdir. Onlar Sırxavənd kəndinə getməyi və orada şəhidin ruhuna dua oxumağı arzulayırlar.

Bayram Mürüdoğlunun Səfərəlinin əziz xatirəsinə həsr etdiyi şeirdə belə misralar var:

***Səndə vardı həm bacarıq, səriştə,***
***Nümunəydin tay-tuşuna hər işdə.***
***Qan uddurub düşməninə döyüşdə***
***Şəhidliyin zirvəsinə yetmisən.***

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

**P.S.** Məqalə üçün məlumatların toplanılmasına göstərdiyi köməyə görə vətənpərvər insan, şəhidin bacısı Gülçöhrə Abdullayevaya dərin minnətdarlığımızı bildiririk.

4_Layout 1 14.04.2025 10:11 Page 1



## ŞƏXSİ HEYƏTİN HEYDƏR ƏLİYEV MƏRKƏZİNƏ VƏ XAN SARAYINA EKSKURSİYASI TƏŞKİL OLUNUB

Şəxsi heyətin mənəvi tərbiyəsi, ictimai-siyasi biliklərinin artırılması, dövlətçilik təfəkkürünün formalaşdırılması baxımından tarixi məkanlara, mədəniyyət abidələrinə, muzeylərə və sərgi mərkəzlərinə ekskursiyaları maarifləndirici rol oynayır. Daxili Qoşunların hərbi hissələrində belə tədbirlər davamlı olaraq təşkil edilir.



Aprelin 3-də 17071 saylı hərbi hissənin ayrı yerləşən patrul taboru komandirinin tərbiyə işləri üzrə müavini kapitan Rəfael Lətifovun rəhbərliyi ilə bir qrup şəxsi heyətin Şəki şəhər Heydər Əliyev Mərkəzinə və Xan sarayına gəzintisi təşkil olunub. İlk olaraq, hərbi qulluqçular Ulu Öndərin həyat və fəaliyyətinin, zəngin dövlətçilik irsinin öyrənilməsi məqsədilə yaradılan Heydər Əliyev Mərkəzində olublar. Məlumat verilib ki, mərkəz Heydər Əliyev Muzeyi kimi fəaliyyətə başlayıb. Daha sonra muzeyin fəaliyyət sahələri genişləndirilib.



Qeyd edilib ki, mərkəz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsini geniş təbliğ edən, həyatı və fəaliyyəti ilə bağlı materialları toplayan, qoruyan, elmi cəhətdən öyrənilməsini təşkil edən mədəniyyət müəssisəsi, həm də elmi-tədqiqat qurumudur. Mərkəzin yeni binası 2018-ci ildə istifadəyə verilib. Burada Ulu Öndərin şəxsi əşyaları və sənədləri kataloqlaşdırılıb, eləcə də müvafiq elektron resurslarda yerləşdirilməsi təmin olunub.

Mərkəzin 1-ci mərtəbəsində görkəmli dövlət xadiminin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərinə - uşaqlıq, gənclik və tələbəlik illəri, habelə dövlət təhlükəsizliyi orqanlarında çalışdığı dövrlərə aid maraqlı fotolar, həmçinin dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi müxtəlif dövrlərdə Şəki şəhərinə səfərlərini əks etdirən şəkillər var.

2-ci mərtəbədəki ekspozisiyada isə hərbi qulluqçularımız Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin geyim formaları, döyüş bayraqlarının nümunələri, eləcə də Azərbaycan Respublikasının orden və medalları ilə tanış olublar.

Daha sonra şəxsi heyət şəhərin ən yüksək hissəsində, qədim qalanın içərisində tikilən, Azərbaycan memarlığının ən gözəl nümunəsi sayılan Xan sarayında olub. Sarayın tarixi haqqında məlumat verilib. Vurğulanıb ki, dünya əhəmiyyətli tarix və memarlıq abidəsi olan Xan sarayı XVIII əsrdə inşa edilib, şəhərin şimal-şərq hissəsində, qala divarları ilə əhatə olunmuş ərazidə yerləşir. 30 metr uzunluğu olan ikimərtəbəli bina 300 kvadratmetr sahəni əhatə edir. Saray altı otaq, dörd dəhliz və iki güzgülü eyvandan ibarətdir. Özündə xalq yaşayış binalarının xüsusiyyətlərini daşıyan saray binası Qafqazda XVIII əsr saray memarlığının ən gözəl nümunələrindən biri olmaqla yanaşı, həm də İslam Şərqinin memarlıq incilərindəndir. Şəhərin tarixi mərkəzi ilə birlikdə saray 120 hektar ərazini əhatə edir.

Qeyd edək ki, dövlətimizin böyük səyi nəticəsində bu tarixi abidəyə 2001-ci ilin oktyabr ayında mədəni irs nümunəsi kimi "gücləndirilmiş mühafizə" statusu verilib və 2019-cu ildə Azərbaycanın "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyası UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Hərbi qulluqçularımız ekskursiyadan zəngin təəssüratlarla qayıdıblar.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

## ŞƏHİD ÖVLADI KİMİ XİDMƏT ETMƏK QÜRURVERİCİDİR

Hər dəfə xidməti ezamiyyətlərdə olarkən nümunəvi xidmətilə fərqlənən qadın hərbçilərimiz haqqında materiallar hazırlayıram. Hazırda haqqında danışacağımız çavuş Maral Qurbanlı da məhz bu cür hərbi qulluqçulardan biridir.



O, 1994-cü il iyunun 12-də Ağdam rayonunun Əhmədağalı kəndində anadan olub. 2000-2006-cı illərdə Kürdəmir rayon Pirili kənd orta məktəbində təhsil alıb. Sonra anası ilə birlikdə Bakı şəhərinə köçən Maral təhsilini Nizami rayonundakı 250 saylı tam orta məktəbdə davam etdirib. 2011-ci ildə həmin məktəbdən məzun olan gənc qız 2013-2015-ci illərdə Bakı Qida Sənaye Kollecində turizm və onun təşkili ixtisası üzrə təhsil alıb.

Özünün dediyinə görə, uşaqlıq illərində idmana və at minməyə dərin maraq göstərib. Ən çox sevdiyi fənlər coğrafiya və tarix olub. Hərbi xidmətə marağı isə doğulduğu gündən üzünü görmədiyi, yalnız anasının xatirələri ilə tanıdığı atası, Birinci Qarabağ müharibəsində şəhid olan Məmmədağa Məhərovdan keçib desək, heç də yanılmarıq. Atasızlığın acısını həyatının hər dönəmində hiss edən Maralın yeganə təsəlli şəhidlik zirvəsini fəth etmiş qəhrəman döyüşçünün övladı olmasıdır. Məhz bu səbəbdən onun hərbi xidmətə gəlişi təsadüfi olmayıb.

Beləliklə, 2016-cı ildə Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsinin qadın hərbçilərdən ibarət qrupunda müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunaraq atıcı vəzifəsinə təyin edilib.

Xidmətə başladığı ilk günlərdən bacarığı, işgüzarlığı ilə həm yoldaşlarının, həm də komandanlığın etimadını qazanıb. Hazırda həmin hərbi hissənin maddi-texniki təminat xidmətlərinin kargüzarı (silah xidməti üzrə) vəzifəsindədir.

Bütün çətinliklərə baxmayaraq, o, hərbi xidmətdə olduğu üçün hər zaman qürur hissi keçirir. Qeyd edək ki, çavuş M.Qurbanlı eyni zamanda respublikamızda keçirilən mühüm əhəmiyyətli beynəlxalq yarışlar zamanı təhlükəsizlik tədbirlərinin təşkilinə cəlb olunub. Bu yarışlarda sayıqlığı və intizamı ilə fərqlənərək dəfələrlə daxili işlər naziri və daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

**kapitan Nigar Ağayeva**

## BÖLÜYÜN İNTİZAMLI ƏSGƏRİ

99713 saylı hərbi hissənin intizamlı, nümunəvi xidmətilə fərqlənən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından biri əsgər Təhmasib Həmidlidir. Hərbi hissənin komendant bölüyünün komandiri baş leytenant Rüfət Əhmədov tərəfindən müsbət xarakterizə olunan hərbçimiz qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir, kollektivdə nüfuza malikdir.



Əsgər T.Həmidli 2005-ci il may ayının 29-da Göyçay rayonunun Ləkçılpaq kəndində anadan olub. 2022-ci ildə Bakı şəhərinin Sabunçu rayonunda yerləşən 188 saylı tam orta məktəbi bitirib. 2024-cü ilin aprel ayında hərbi xidmətə çağırılıb. Hazırda komendant bölüyünün atıcısı vəzifəsində xidmətini davam etdirir, daim üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir.

Sayıqlıq və əzmkarlığı ilə yanaşı, həm də bölüyün fəallarındandır. Ona təhkim edilən silahın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilir. Vətənə olan borcunu ləyaqətlə yerinə yetirən hərbi qulluqçumuzun ən böyük arzusu xidmətini başa vurduqdan sonra Vətənimizi idman sahəsində beynəlxalq yarışlarda təmsil etmək, bayrağımızı qürurla zirvələrdə dalğalandırmaqdır.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XİDMƏTDƏ KEYFİYYƏTLİ QİDALANMA ƏSAS AMİLLƏRDƏN BİRİDİR



Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi sahələrdən biri şəxsi heyətin keyfiyyətli, kaloriliyeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, keyfiyyətli qidalanmadan da asılıdır.

12318 saylı hərbi hissə komandirinin maddi-texniki təminat üzrə müavini polkovnik-leytenant İftixar Əhmədov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin dadlı və keyfiyyətli hazırlanması Daxili Qoşunlar komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Eyni zamanda xörəklərin hazırlanması zamanı sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.



Polkovnik-leytenant İ.Əhmədov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də rasiona daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkilini də qeyd etdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Komandir müavini görülən işlərdə yeməkxana rəisi baş çavuş Vüsal Əliyevin əməyini xüsusi olaraq vurğuladı. Qarşıya qoyulan tapşırıqların icrasına, qidaların tələb olunan keyfiyyətdə hazırlanmasına, gigiyena qaydalarına ciddi əməl olunmasına şəxsən nəzarət etdiyini sözlərinə əlavə etdi.

Həmçinin qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlarla yanaşı, işçi - aşpazlardan Sevinc Əliyeva, Sevinc Məmmədova və Səlfinaz Eyvazovanın fəaliyyətləri müsbət qiymətləndirildi.

**kapitan Nigar Ağayeva**

## QAZANXANANIN FƏALİYYƏTİNDƏ TƏHLÜKƏSİZLİK QAYDALARINA CİDDİ RİAYƏT OLUNUR

16075 saylı hərbi hissənin qazanxanası gündəlik xidmətini təhlükəsizlik qaydaları üzrə müvafiq təlimatların tələblərinə əsasən təşkil edir. Qazanxana, qazanlar və bütün digər avadanlıqları hər zaman saz vəziyyətdə, təmiz və səliqəli saxlanılması təmin olunur.



Maddi-texniki təminat xidmətlərinin mənzil-istismar xidmətinin rəisi mayor Elnur Gülverdiyev qazanxananın fəaliyyəti barədə məlumat verərək bildirdi ki, qazanxana rəisi qurğuların, avadanlıqların düzgün texniki istismarına, yanacaq materiallarının uçotunun aparılmasına, qazanxanada yanğından mühafizə tədbirlərinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır.

Mayor E.Gülverdiyev qeyd etdi ki, qazanlar işə salınmazdan öncə onların və digər avadanlıqların işlək vəziyyətdə olması diqqətlə yoxlanılır. Yalnız qazanxana rəisinin göstərişindən sonra qazanlar və qurğular işə salınır. Qazanxana qurğularına xidmət etmək üçün təlimatın tələblərinə əməl olunur. Müəyyən nasazlıqlar yarandıqda və qazanın yanma kamerasının qaz yollarında hər hansı bir iş görülərkən təhlükəsizlik qaydalarına ciddi riayət edilir.

Bundan əlavə, qazanxananın içini kənar əşyalarla doldurmaq və ya orada hər hansı material və ya əşyaların saxlanılması, eləcə də qazanxanaya kənar şəxslərin daxil olması qəti qadağandır. Elektrik avadanlıqların qısaqapanmadan və artıq yüklənmədən qorumaq, baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə qoruyuculardan istifadə edilir. Qazanların yuyulması və təmizlənməsi üçün onların dayandırılması müvafiq qrafik üzrə həyata keçirilir. Xidmət rəisi söylədi ki, həmin qrafik qazanların konstruksiyası və istismar şərtləri nəzərə alınmaqla hazırlanır və hərbi hissə komandiri tərəfindən təsdiq olunur.

Mayor E.Gülverdiyev görülən işlərdə qazanxana operatorları Ramiz Paşayev, Emil Rəfiyev və Cəsarət Muradovun zəhmətlərini yüksək qiymətləndirdi, qarşıya qoyulan tapşırıqları vaxtında və keyfiyyətlə icra etdiklərini bildirdi.

**kapitan Şahin Cəfərzadə**

*Sağlamlıq*

### Elektron siqaretdən istifadə popkorn xəstəliyinə səbəb olur

Veyp istifadə edən yeniyetmələr arasında son dövrlərdə popkorn xəstəliyinin yayılması ciddi narahatlıq yaradır. Veypin insan sağlamlığı üçün digər təhlükəsi isə tərkibindəki diasetil adlı kimyəvi maddə səbəbindən yaranan popkorn xəstəliyidir.



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb. Məlumatda deyilir ki, həmin xəstəlik veyp istifadə edən yeniyetmələr arasında tənəffüs sistemi ilə bağlı sağlamlıq problemlərinə səbəb olur. Xəstəliyin adı isə çox maraqlıdır. Bəs niyə popkorn? Çünki xəstəliyin təsiri ilə ağciyərlərdən gələn səs popkorn xırıltısını xatırladır.

Məlumatda daha sonra bildirilir: "Popkorn xəstəliyi özünü əvvəlcə adi bir respirator infeksiya kimi göstərir. Quru öskürək, nəfəs darlığı, döş qəfəsində ağrılar, halsızlıq və bəzən yüksək temperatura müşahidə olunur. Lakin zamanla vəziyyət pisləşir, ağciyərlərdə geriyədönməz dəyişikliklər baş verir.

Əgər sağlamlığınızı qorumaq istəyirsinizsə, veypdən imtina etmək ən düzgün addım olacaq. Unutmayın ki, sağlamlığınız ən qiymətli sərvətinizdir!".

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### İsveç Silahlı Qüvvələri GM200 MM/C radarları ilə təchiz olunacaq

Fransanın "Thales" şirkəti İsveç Silahlı Qüvvələrini "Ground Master 200" kompakt çoxmissiyalı (GM200 MM/C) radarları ilə təchiz edəcək. "Poliqon" "Thales"ə istinadən xəbər verir ki, bunun üçün şirkət və İsveçin Müdafiə Avadanlıqları İdarəsi (FMV) arasında müqavilə imzalanıb.



Müqavilə çərçivəsində ilk tədarüklərin 2026-cı ildə həyata keçirilməsi planlaşdırılır.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000